


QƏRBİ AZƏRBAYCAN

XX əsrin bəlası - Deportasiya




# MÜQƏDDƏS YURDUMUZ BİZİ SƏSLƏYİR...

> ...Mən inanıram, tam inanıram ki, bizim bölgədə hər şey ədalət naminə dəyişəcəkdir. Azərbaycan xalqının bu əzab-əziyyətinə görə onun xeyrinə dəyişəcəkdir. Siz gələcəkdə mütləq və mütləq gedib öz gözəl Göyçə torpağınızı da görəcəksiniz, öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz. Mən buna heç şübhə etmirəm...
>
> **Heydər ƏLİYEV,**
> **Ümummilli Lider.**

*XIX əsrin əvvəllərindən başlayaraq düşünülmüş, məqsədyönlü şəkildə zaman-zaman erməni şovinistləri azərbaycanlıları öz tarixi torpaqlarından, ata-baba yurdlarından didərgin salmış, onların əmlaklarını talamış, evlərini yandırmış, divan tutaraq deportasiya həyata keçirmişlər. Erməni faşistləri bu ərazilərdə on minlərlə dinc azərbaycanlı əhalini - qadını, uşağı, qocanı, yalnız milli mənsubiyyətlərinə görə vəhşicəsinə qətlə yetirmiş, yaşayış yerlərini talan etmiş, xalqımızın milli mədəniyyət abidələrini, məscidləri dağıtmış və yandırmışlar. Ümumiyyətlə, erməni şovinistləri həmişə ziddiyyətlər yaratmış, torpaq iddiası irəli sürmüşlər. Bu isə qarşıdurma yaratmış, müharibə, ölüm, fəlakət, bədbəxtlik və faciə ilə nəticələnmişdir. Bu onlarda irsi xəstəlikdir.*

Gəlmə olub torpaqlarımızda yerləşdiklərinə baxmayaraq, dəfələrlə milli tariximizdə dərin izləri qalan xəyanətlər etmişlər. Həmin xəyanətlərdən, qanlı faciələrdən biri də 1988-ci ildə həyata keçirildi. İlk növbədə, Qərbi Azərbaycan ərazisində yaşayan azərbaycanlılar sıxışdırıldı. Qərbi Azərbaycanın dilbər güşələrindən olan, ulu babalarımızın, nurlu nənələrimizin ruhları yaşayan, dəniz səviyyəsindən 2000 metr yüksəklikdə yerləşən Göyçə gölünün nəğməli sahillərindəki Göyçə mahalında olan faciədən ətraflı məlumat almaq üçün ürəyi Vətən həsrəti ilə döyünən, **Qərbi Azərbaycan İcmasının Bala Məzrə kənd icması sədrinin birinci müavini, təcrübəli pedaqoq Asif Quliyevlə** həmsöhbət olduq. O qeyd etdi ki, zaman-zaman İrəvan xanlığı ərazisində, Göyçə mahalında, Zəngəzurda, Vedidə, Dərələyəzdə və digər Qərbi Azərbaycan torpaqlarında mərhələli şəkildə məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə əslində azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət" qazandırmaq məqsədilə erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş çoxlu çirkin işlər görülürdü. Azərbaycanın və ümumən Qafqazın ta-



rixinin təhrif olunması həmin saxtakarlıqların nəticəsi idi. "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni vandalları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirmişdilər. Azərbaycanlılara divan tutulmuş, qanlarına qəltan edilmiş, əmlakları mənimsənilmiş, mülkləri zəbt olunmuşdur.

XX əsrin 80-ci illərində faşist xislətli erməni millətçiləri daha da azğınlaşdılar. Onlar sovet rəhbərliyinin ermənipərəst olduğundan istifadə edərək daha da fəallaşdılar, uydurma Dağlıq Qarabağ məsələsini ortaya atdılar. Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində 300 minə yaxın soydaşımız zülm və işgəncə ilə doğma torpaqlarından qovuldu. Qərbi Azərbaycanda bir nəfər olsun azərbaycanlı qalmadı. Qədim Oğuz elləri xarabalığa çevrildi, türklərə məxsus olan abidələr, qəbiristanlıqlar dağıdıldı. Dövlət başçısı cənab İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə bunu bir daha xatırlatmışdı: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, icma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır". Həmçinin, cənab Prezident öz çıxışında birmənalı olaraq bildirmişdir ki, "Göyçə, Zəngəzur, İrəvan bizim tarixi torpaqlarımızdır. Biz, azərbaycanlılar, o torpaqlara qayıtmalıyıq və o torpaqlara qayıdacağıq. Biz tariximizi heç vaxt unutmamalıyıq". Bu qətiyyətli və cəsarətli çağırış bizi istiqamətləndirən bir yol xəritəsidir. Çünki müqəddəs torpaq həsrəti üçün hamımızın qəlbimiz bir vurur. Bəli, Göyçə mahalı Oğuz türklərinin ən qədim yaşayış məskənlərindən biri olmuşdur. Şah dağından baxanda bu mahal ortasına ayna salınmış güllü bir nəlbəkini xatırladır.

Göyçə mahalı çox qədim zamanlardan bəri el şairlərinin, saz-söz sənətkarlarının vətəni olmuşdur. Göyçə mahalında yaşayıb-yaratmış saz ustaları milli aşıq sənətinə uğur gətirmişlər. Buranın əhalisi şad günlərdə, qəmli anlarda qədim qopuzun varisi olan sazı kökləmiş və onun sədaları ilə ürək çırpıntısını, könül sızıltısını ifadə etmişdir. Göyçənin elə bir guşəsi yoxdur ki, orada Türk-Oğuz izlərinə rast gəlinməsin. Toxluca kəndindəki Qanqalı dağı, Göyərçin kəndinin örüşündə Qara Quzeyadlı dağı, Zod aşırımında Soyuq Bulaq uzaq keçmişdən bu günə kimi Oğuz türklərinin daş yaddaşı idi. Göyçə elinin şifahi xalq ədəbiyyatı nümunələrindəki mifoloji varlıqlar haqqında inancların kökü qədim dövrə gedərək tanrıçılıq, şamançılıq dünyagörüşünə söykənir. Geniş münbit otlaqlara, ormanlara malik olan Göyçə mahalında yaşayan əhali daha çox əkinçilik, maldarlıq, arıçılıq, bağçılıq, xalçaçılıq və balıqçılıqla məşğul olmuşdur. Olduqca zirək, cəsarətli, mərd, vətənpərvər və qoçaq olan bu insanlar özləri üçün hər bir şərait yaratmış, firavan yaşamışlar. Amma xəbis, naxələf, hiyləgər erməni daşnaqları zaman-zaman bu dinc xalqa qarşı pis niyyətlərini gizlincə həyata keçirdilər. Rayonda ermənilər çox yaşayan ərazilərdə azərbaycanlılara sataşır, alçatmağa çalışırdılar, amma mərd, cəsur azərbaycanlılar bunun qarşısını ləyaqətlə alırdılar. Nəhayət, məlum hadisələrdən sonra, onlar açıq-açığına baş qaldırmağa başladılar. Belə ki, ümummilli lider Heydər Əliyevin Mərkəzi Komitədən istefası ilə onların daha da əl-qolu açıldı. Bundan sonra isə erməni millətçiləri öz havadarlarının köməyi ilə Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başladılar. Azərbaycan kəndlərinin tarixi adları kütləvi şəkildə dəyişdirildi, toponimika tarixində misli görünməyən hadisə - qədim toponimlərin müasir erməni adları ilə əvəzolunma prosesi baş verdi. Bu hadisələrə dözməyən vətənpərvər Göyçə fəalları və ziyalılarının 1988-ci ilin 15 iyununda Çənbərək (Krasnoselo) ərazisində başladığı etiraz mitinqləri genişlənib bütün Göyçəni bürüdü. Basarkeçərdə isə bütün kəndləri əhatə etdi. Təşkilatçılar mitinqləri rayon mərkəzində, partiya komitəsinin binası qarşısında keçirməyi qərara aldılar. Lakin bu, mümkün olmadı. Ermənistan hökuməti və rayon rəhbərliyi tərəfindən dərhal ordu hissələri gətirilərək mitinqlər dayandırıldı. Qarabağın müdafiəsi üçün kəndlərdə keçirilən nümayişlərdən sonra, ermənilərin azərbaycanlılara qarşı münasibəti daha da kəskinləşdi. Rayon rəhbərliyinin göstərişi ilə 300-ə qədər azərbaycanlı döyüldü. Bir neçə gün sonra Qanlı və Kərkəbaş (Şəfəq) kəndlərində bu vəhşiliyə qarşı yenidən etiraz mitinqləri keçirildi. Buna cavab olaraq təxminən 1000 nəfərə qədər silahlı erməni faşistləri hər iki kəndi mühasirəyə alaraq mitinqləri dayandırmağı tələb etdilər. Əhali faşist erməniləri qovub kəndlərdən uzaqlaşdırdılar. Gələn hərbçilər və rayon rəhbərlərinin təkidinə baxmayaraq, nümayişlər yenidən canlandı. Əfsuslar ki, öz doğma Azərbaycanımızın o vaxtkı səriştəsiz rəhbərliyi buna biganə yanaşdı.









Nəhayət, 1988-1989-cu illərdə azərbaycanlıların tarixi-etnik torpaqlarından - indiki Ermənistandan növbəti deportasiya baş verdi, nəticədə 200 mindən çox azərbaycanlı qaçqın həyatı yaşamağa məcbur oldu. Əmlakları talan olundu. Bu hadisəyə, o cümlədən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinə Azərbaycan xalqının etirazı, onlara qarşı 1990-cı ilin yanvarında Sovet qoşunlarının yeridilməsinə, Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında kütləvi qırğınlara, faciəyə səbəb oldu.

Müqəddəs yurdumuzdan, öz ata-baba, tarixi etnik torpaqlarından ayrıldığı vaxtdan 37 il keçir. Hamı vətən eşqi ilə yaşayır, gözlər qəribsəmiş yurd yerlərinə dikilib, sanki o yamaclar, ormanlar bizi səsləyir. Əfsuslar ki, bərəkətli Oğuz yurdunda, məğrur türklərin at oynatdığı qədim yaşayış məskənlərində, indi haylar gəzib-dolaşırlar. Biz inanırıq ki, Qərbi Azərbaycana Qayıdış Konsepsiyası tezliklə reallaşacaq, xalqımızın pozulmuş hüquqları bərpa olunacaq. Qərbi azərbaycanlılar tezliklə öz torpaqlarına qovuşacaqlar... Müzəffər Ali Baş Komandan, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günə düşmən üzərində möhtəşəm qələbəsi, dünyada hərbi gücümüzün, qüdrətimizin, Azərbaycan əsgərinin cəsarəti, igidliyi, qəhrəmanlığı böyük inam yaratmışdır.

**Zabit XƏLİLOV,**
**"Respublika".**